**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I N D A N Ç I X A R I Ş**

**№** 43 **"** 04 **"** Mart **2025-ci il**

**"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"ndan irəli gələn vəzifələrin Binəqədi rayonunda icrası ilə bağlı tədbirlər planının təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 477 nömrəli Sərəncamın icrasını təmin etmək və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.2-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
3. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, tədbirlər planının aidiyyəti üzrə çatdırılmasını təmin etsin.
4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Sabir Əliyev**

Scanned with CamScanner

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
"04" Mart 2025-ci il tarixli 43 saylı
Sərəncamı ilə təsdiq edilmişdir

"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Dövlət Suverenliyi Gününün və Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması ilə əlaqədar tədbirlərin keçirilməsi | 20 sentyabr, 12 noyabr 2025-ci il | Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının SİƏD və QİƏD üzrə nümayəndələri, aidiyyəti dövlət orqanları (qurumları), Bələdiyyələr (tövsiyə olunur) |
| 2. | "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlərin keçirilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti aidiyyəti dövlət orqanları (qurumları), Bələdiyyələr (tövsiyə olunur) |
| 3. | "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş forumların, konfransların, dəyirmi masaların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkil edilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti aidiyyəti dövlət orqanları (qurumları), Bələdiyyələr (tövsiyə olunur) |
| 4. | Binəqədi rayonu ərazisində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının SİƏD və QİƏD üzrə nümayəndələri, aidiyyəti dövlət orqanları (qurumları), Bələdiyyələr (tövsiyə olunur) |

Scanned with CamScanner

| | | | |
|---|---|---|---|
| **5.** | "Konstitusiya və Suverenlik İli" çərçivəsində idman yarışlarının və turnirlərin təşkili | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti, aidiyyəti dövlət orqanları (qurumları) |
| **6.** | "Konstitusiya və Suverenlik İli" ilə bağlı rayon ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti, Bələdiyyələr (tövsiyə olunur) |
| **7.** | Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş şəxslərin ailələrinin və müharibə veteranlarının sosial məsələlərinin həlli istiqamətində tədbirlərin davam etdirilməsi, Xeyriyyə aksiyalarının həyata keçirilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti, Bələdiyyələr (tövsiyə olunur) |
| **8.** | Yeniyetmələr və gənclər arasında olimpiadaların, müsabiqələrin, marafonların, debatların və təlimlərin keçirilməsi | İl ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti, aidiyyəti dövlət orqanları |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Nicat Allahverdiyev**

Scanned with CamScanner